# Lisenziya və icazə verən orqanlara yeni səlahiyyət veriləcək

"Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi 2019-cu ilin yaz və növbədənkənar sessiyalar dövründə öz fəaliyyətini parlamentin qanunvericilik planına uyğun şəkildə həyata keçirib. Hesabat dövründə komitənin 26 iclası keçirilib, bu iclaslarda 181 məsələ, o cümlədən 180 qanun layihəsi geniş müzakirə edilib".

Bu fikirləri Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin payız sessiyasında keçirilən ilk iclasında komitənin sədri Ziyad Səmədzadə söyləyib. Komitə sədri payız sessiyası dövründə müzakirəyə çıxarılacaq sənədlərlə bağlı ətraflı məlumat verdikdən sonra iclasda "Lombardlar haqqında" və "Texniki tənzimləmə haqqında" qanun layihələri ikinci oxunuşda müzakirəyə çıxarılıb. Qeyd edilib ki, 6 fəsil 18 maddədən ibarət olan "Lombardlar haqqında" qanun layihəsi lombardlar tərəfindən kreditlərin verilməsi və əşyaların saxlamaya qəbul edilməsi, habelə lombardlar tərəfindən həyata keçirilən fəaliyyətin nizamlanması və ona nəzarət ilə bağlı münasibətləri tənzimləyir. Bundan əlavə, lombard fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaların verilməsi və ləğv edilməsi, habelə filial açmaq üçün lombardlara icazə verilməsi və verilmiş icazələrin ləğv edilməsi maliyyə bazarlarına nəzarət orqanı tərəfindən həyata keçiriləcək.

4 fəsil, 18 maddədən ibarət olan "Texniki tənzimləmə haqqında" qanun layihəsi mallar (işlər, xidmətlər), onlarla əlaqəli proseslər və istehsal metodları üzrə texniki tənzimləmənin məqsəd və prinsiplərini və tətbiqi qaydalarını müəyyən edir. Texniki tənzimləmənin məqsədi insanların həyat və sağlamlığının, ətraf mühitin, əmlakın və dövlətin maraqlarının mühafizəsinin təmin edilməsi, istehlakçıların hüquqlarının və qanuni maraqlarının müdafiəsi, ticarətdə texniki maneələrin aradan qaldırılması, malların rəqabət qabiliyyətliliyinin artırılmasıdır.

İclasda həmçinin bir sıra qanun layihələrinə dəyişikliklər də müzakirəyə çıxarılıb. Bunların sırasında "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Uşaq hüquqları haqqında", "Təhsil haqqında", "Reklam haqqında" və "Məktəbəqədər təhsil haqqında" qanunlarda dəyişikliklər edilməsi barədə qanun layihələri (birinci oxunuş) də var.

Həmçinin komitədə "Lisenziyalar və icazələr haqqında" qanunda dəyişiklik edilməsi barədə layihə də birinci oxunuşda müzakirə edilib. Qeyd edilib ki, qanun layihəsi lisenziya və icazə verən orqanlara yeni səlahiyyətin verilməsi məqsədi ilə hazırlanıb. Qanuna yeni əlavə nəzərdə tutulub. Yeni 6.3.3-1. maddədə qeyd edilir ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi siyahı üzrə verdiyi, dayandırdığı, bərpa və ləğv etdiyi lisenziyalar, icazələr ilə bağlı bu qanunun 8.1-ci maddəsində göstərilən məlumatlar reyestrdə qeydə alındığı tarixdən 3 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanına göndərilir.

Müzakirələrdən sonra gündəlikdəki məsələlər Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Azərbaycan.- 2019.- 18 sentyabr.- S. 2.